

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 226 (21.636)

29 noyabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Noyabrın 28-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu qarşılayıb.

* * *

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olub.

* * *

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi keçirilib.

* * *

Noyabrın 28-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər.



## Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin binası istifadəyə verilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"İqtisadiyyatı irəli aparan və ölkənin uğurunu nümayiş etdirən təbii ehtiyatlar yox, təhsil və əhalinin intellektual potensialıdır".***

Bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı əsas vəzifədir. İntellektli və vətənpərvər gənclərin yetişdirilməsi diqqət mərkəzində saxlanılır. Təhsil quruculuğu tədbirləri 2016-cı ildə də davam etdirilmiş, muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində yeni məktəb binaları tikilmiş, mövcud məktəb binaları yenidən qurulmuşdur.

Noyabrın 28-də akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, 594 şagird yerlik 4 mərtəbəli məktəbdə akademik Zərifə xanım Əliyevanın xatirə muzeyi, 5-i elektron lövhəli olmaqla, 33 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, 2 şahmat otağı, müəllimlər otağı, tibb otağı, kitabxana, idman zalı və bufet vardır.

Məktəbin foyesində akademik Zərifə xanım Əliyevanın büstü qoyulmuşdur. Görkəmli akademikin xatirə muzeyi binanın birinci mərtəbəsində yerləşir. Burada Şahtaxtı kəndinin yetirməsi olan alimin həyat və fəaliyyətini əks etdirən məlumatlar, fotoşəkillər və kitablar qoyulmuşdur.

2016-2017-ci tədris ilində Şahtaxtı kənd tam orta məktəbində birinci sinfə 43 şagird qəbul olunmuşdur. Məktəbəhazırlıq qrupuna isə 42 uşaq cəlb olunmuşdur.

Məktəbdə 38 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Kitabxanada 8 mindən artıq kitab müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Kimya və biologiya laboratoriyaları tədris proqramına uyğun təcrübə avadanlıqları, fizika laboratoriyası isə həm də elektron lövhə ilə təmin edilmişdir.



Ali Məclisin Sədri məktəbdə kitabxanalara və şagirdlərin dəqiq elmlərə marağının artırılması, fənn olimpiadalarının keçirilməsi, Şərur Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbulun sayının artırılması barədə tapşırıqlar vermişdir.

Elektron lövhəli sinifdə Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi ilə əlaqə yaradılmış, muxtar respublikanın 212 ümumtəhsil məktəbi ilə birlikdə distant dərs keçirilmişdir.

Sonra müəllimlər otağında məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin müasir tədrisin tələbləri səviyyəsində qurulduğunu bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: Ölkənin inkişafını təhsil olmadan təsəvvür etmək mümkün deyil. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də ölkənin təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır".*** Ölkəmizdə ulu öndərin tövsiyələrinə əməl olunaraq müasir məktəb binaları tikilir. Bu gün istifadəyə verilən Şahtaxtı kənd tam orta məktəbinin binası da təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərin davamıdır.





Ali Məclisin Sədri demişdir: Bu gün orta məktəblərdə təhsil alan hər bir gənc gələcəkdə Azərbaycanın ali, orta ixtisas və peşə məktəbləri ilə yanaşı, eyni zamanda xarici ölkələrdə də təhsil almaq imkanında olmalıdır. Bunun üçün şagirdlər, ilk növbədə, xarici dil bilməli və dəqiq elmləri yaxşı öyrənməlidirlər. Ölkəmizdə bu tədbirlərin həyata keçirilməsi üçün lazımi şərait yaradılmışdır. Müasir tədris imkanları olan məktəb binaları istifadəyə verilir, diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqları artırılır, öz fəaliyyəti ilə fərqlənən müəllimlərin əməyi qiymətləndirilir. Şahtaxtı kənd tam orta məktəbində də müasir tədris şəraiti yaradılmış, məktəbin 1 müəllimi "Tərəqqi" medalı ilə təltif edilmiş, 1 müəllim isə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

Məktəbin nailiyyətlərinin qənaətləndirici olduğunu bildirən Ali Məclisin Sədri demişdir: Ötən tədris ilində məktəbin məzunlarından 7-si ali məktəblərə, doqquzuncu sinif bazasından isə 4 şagird orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Ali məktəblərə qəbul olanlardan 3-ü 500-700 arası bal toplamışdır.

Ali Məclisin Sədri demişdir: Şahtaxtı kənd tam orta məktəbi görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Məktəb muxtar respublikanın xüsusi təhsil müəssisələrindəndir. Ona görə də məktəbdə bundan sonra da tədris günün tələbləri səviyyəsində qurulmalı, nizam-intizama ciddi əməl olunmalı, nailiyyətlər daha da artırılmalıdır. Məktəbdə şagirdləri həkim peşəsinə yönləndirməli, onların gələcəkdə tibb təhsili almasına xüsusi diqqət yetirilməlidir.

Ardı 2-ci səhifədə



Məktəb binasında dəqiq elmlərin tədrisi üçün yaradılan şərait, kimya, biologiya və fizika laboratoriyalarının istifadəyə verilməsi, ixtisaslı müəllimlərin olması bu vəzifələrin uğurla yerinə yetirilməsinə imkan yaradır.

Gənc müəllim Nilufər Rzayeva kollektiv adından minnətdarlıq edərək demişdir: Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində yaradılan şərait müəllim kollektivini, xüsusilə gənc müəllimləri daha səylə çalışmağa ruhlandırır. Üzərimizə böyük məsuliyyət düşür. Çalışacağıq ki, məktəbimizdə ölkəmiz üçün savadlı, vətənpərvər, ən əsası isə gələcəyin həkimi olan gənclər yetişdirək.

Məktəbdəki şahmat otaqları, müasir idman zalı və hərbi kabinə şagirdlərin əqli və fiziki cəhətdən inkişafında, hərbi-vətənpərvərlik tərbiyələrinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

***Ölkəmizin ən yeni tarixində Naxçıvan Muxtar Respublikasının inkişafı ilə bağlı yazılmış səhifələr parlaq yer tutur. Bu, elə bir dövrdür ki, Naxçıvan müasirləşib, abadlaşdırılan kəndlər, şəhərlər rifaha qovuşub. Bütün bunları – bu günlə keçmişin mənzərəsini ortaya qoyub müqayisə apardıqda keçilən yolun, yaranmış fərqin canlı şahidi oluruq. Təkcə Babək rayonunun deyil, muxtar respublikamızın və ölkəmizin ən böyük kənd yaşayış məntəqələrindən biri olan Nehrəmin dünəni və bu günü də beləcə, bir-birindən çox fərqlidir.***

# Dünəndən bu günə Nehrəm




Nehrəm kəndi özünün maraqlı tarixi və müasir inkişafı, insanlarının məşğuliyyəti, onların vətənpərvərliyi, təəssübkeşliyi, torpağa bağlılığı ilə həmişə diqqəti cəlb edib. Kəndin adı çoxlarına yaxşı tanış olan bir toponim kimi, ümumiyyətlə, Naxçıvanın qədim tarixi ilə də həmahəngdir. Tədqiqatçıların Naxçıvan, Nuhçıxan, Nehrəm, Nəhəcir kimi adların bəşəriyyətin ikinci atası hesab edilən Nuh Peyğəmbərin adı ilə bağlı olduğunu göstərməsi, eləcə də bu yaşayış məntəqələrinin yaşının tarixin ən qədim qatlarınadək gedib çıxması bu fikirləri daha da qüvvətləndirir. Nehrəmlilərin XX əsrin əvvəllərində və 1990-cı illərdə cərəyan etmiş hadisələrdə fəal iştirakı, onların ölkəmizin torpaq bütövlüyü və Naxçıvanın müdafiəsindəki qəhrəmanlığı bu gün də yaddaşlarda yaşayır. 1990-cı illərin əvvəllərində, ulu öndər Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə məhz Nehrəm kəndindən Azərbaycan Ali Sovetinə deputatlığa namizəd irəli sürülməsi və dahi şəxsiyyətin Nehrəmə həmişə qayğı göstərməsi xüsusilə qeyd olunmalıdır. Beləcə, ötən müddət ərzində Nehrəm kəndi bütün Naxçıvanla birgə böyük bir inkişaf yolu keçərək bu gün görənləri heyrətə salan müasir şəhər görkəmli iri yaşayış məntəqəsinə çevrilib.

Keçdiyimiz ötən günlər də nehrəmlilər üçün yaddaqalan olub. Belə ki, cari il noyabr ayının 11-də Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsinin istifadəyə verilməsi ilə kəndin yol infrastrukturu tamamilə yenilənib. Bu yolun yenidən qurulması Nehrəm və onun ətrafındakı yaşayış məntəqələrində sakinlərin rahat həyatı və qaynar təsərrüfat fəaliyyəti üçün yeni imkanlar açıb. Ölkə Prezidentinin Azərbaycanın hər bir guşəsinin inkişafına göstərdiyi diqqət və qayğıdan öz bəhrəsini alan Nehrəmdə də bütün sosial tələbatlar artıq tam şəkildə ödənilməkdədir. Belə ki, son illər kənddə geniş abadlıq-quruculuq işləri aparılıb. Burada xəstəxana binası, 3 tam orta məktəb, kənd mərkəzi, uşaq musiqi məktəbi, ticarət mərkəzi, iki məişət evi, Cəlil Məmmədquluzadənin xatirə muzeyi və digər mühüm sosial-mədəni obyektlər istifadəyə verilib. Bütün bunlar Nehrəmdə bu gün yaradılan, nehrəmlilərin rahatlığı üçün tikilən, qurulanlardır.

Müasir görüntüsü şəhəri xatırladan Nehrəm kəndindən danışdıqda 20 il əvvəlki blokada dövrünün çətinlikləri bir daha göz önünə gəlir. Bu kəndin yaşlı insanları həmin dövrün problemlərini yaxşı xatırlayırlar. Kənd sakini Tofiq Abutalıbov deyir ki, Naxçıvan şəhərindən cəmi 9 kilometr məsafədə olsa da, həmin vaxt gün ərzində cəmi iki dəfə bu kəndə sərnişin nəqliyyatı əlaqəsi var idi. Bu gün 10 dəqiqədən bir Naxçıvan şəhərinə işləyən lüks sərnişin avtobuslarının xidmətindən istifadə edən Nehrəm sakinləri artıq həmin dövrdəki toz-torpaqlı yollarda çəkdikləri əziyyətləri çoxdan unudublar. Hazırda Nehrəmdə 3000-dən çox təsərrüfat vardır. Başqa sözlə, kəndin əhalisi həmin dövrdən bəri,



təqribən, iki dəfə artıb, 15 min nəfəri ötüb. Təkcə son illər burada 60-dan çox yeni fərdi ev tikilib. Kənd genişlənib, villatipli müasir evlərin sayı çoxalıb. Bu qədər böyük bir kəndə şəhər standartları gətirən yeni asfalt yollar kəndi üzük qaşı kimi dövrələyir, kəndarası gediş-gəlişi asanlaşdırır.

Nehrəmdəki sosial həyatdan, insanların müasir güzəranından çox danışmaq olar. Bu gün Nehrəmin inkişafından maraqla söhbət aça bilirik. Amma bir vaxtlar adicə su qıtlığının çox kəskin olduğu Nehrəmdə bunlardan kimsə danışa bilməzdi. Nehrəm geniş və bərəkətli torpaq sahələrinə malikdir. Nehrəmdə görüşdüyümüz kənd sakini Hüseyn Rəsulov deyir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində nəinki suvarma suyuna, hətta adamların təmiz içməli suya da tələbatı ödənilməyib. Belə olduqda imkanı olanlar suyu daşdan süzüb içər, qalan camaat da elə arxdan gələn sudan mətbəxdə istifadə edərdi. Amma zaman dəyişildi, ölkəmizin iqtisadi qüdrəti artdı, adamların həyat standartları yüksəldi. İndi Naxçıvandakı iri su anbarlarından çəkilmiş kanallarla Nehrəmin suvarma suyuna olan tələbatı tam ödənilib. Təkcə "Pircüvar" massivində susuz qalmış min hektardan çox əraziyə su verilib, əkin dövriyyəsinə qatılmış torpaqların sahəsi, təqribən, 350 hektar artıb. Naxçıvançayın, Əlincəçayın təmizlənmiş suyundan evlərə, məhəllələrə içməli su çəkilib.






Nehrəmlilər işgüzar insanlardır. Onlar təsərrüfatda və ticarətdə olduğu kimi, elm, təhsil və səhiyyədə də yaxşı tanınıblar. Bu gün Nehrəmdə və ölkəmizin digər yerlərində uğurlu biznes layihələri həyata keçirən çox sayda nehrəmli sahibkarlar vardır. Heç bir kredit dəstəyi almadan qurduğu işi addım-addım böyüdərək yaxşı biznes sahibi olmuş sahibkarlar çoxdur bu kənddə. Burada fəaliyyət göstərən "Xalaoğlu" kəndli fermer təsərrüfatında istehsal olunan məhsullara tələbat getdikcə artır.

Vaxtilə Nehrəmboyu səpələnmiş primitiv dükanların, dəmir köşklərin yaratdığı acınacaqlı bir mənzərə də vardı. Adamlar pul qazanmaq üçün harda gəldi bazar açıb, əlinə keçəni alıb-satardı. Qiymətdə kimin uduzduğunun, keyfiyyətdə kimin aldandığının bəlli olmadığı bir dövrdə hansı firavanlıqdan danışmaq olardı ki? Ancaq indi Nehrəmdə fəaliyyət göstərən 25 mağazalı ticarət mərkəzi, 2 ikimərtəbəli məişət evi, 70 yerlik üstüqapalı bazar kompleksi, ayrıca ət bazarı, lavaş sexləri müasir istehlakçının bütün tələbatlarına cavab verir. Müasir elektron xidmətlər də öz yerində. Sosial həyatın mühüm tələblərindən olan səhiyyə xidmətləri də burada yaxşı təşkil olunub. Nehrəmdəki xəstəxanada göstərilən keyfiyyətli tibb xidmətləri və burada 24 saat işləyən aptek hər kəsin ürəyincədir.



Əkinçilik və maldarlıq Nehrəmin ənənəvi kənd təsərrüfatı sahələridir. Naxçıvana gəlmiş qonağı Nehrəm pendiri və yaxud Nehrəmdə bəslənmiş quzunun kababına qonaq etmək çoxdan dəbdə olan adətdir. Nehrəm qarpızı da öz əkinçisinə yaxşı gəlir gətirir. Taxılçılıq, bostançılıq və heyvandarlıqdan əlavə, indi nehrəmlilər arıçılığa da maraq göstərirlər. Deyirlər ki, kənddə artıq 300-ə yaxın arı ailəsi vardır. Görünür, adamlar təsərrüfatın hər sahəsində özlərini sınamaq istəyirlər. Bu il Naxçıvanda keçirilmiş göycə festivalında Nehrəm göycəsi xüsusi maraq görüb. Qeyd edək ki, həmin festivalda Babək rayonu ilk sıranı tutub. Göründüyü kimi, 20 il əvvəl öz gündəlik qazancını alverdə axtaran Nehrəm kəndlisi bu gün əkinçilik, üzümçülük, bostançılıq, istixana təsərrüfatlarında, emal sənayesində özünə etibarlı gəlir mənbəyi yaradıb. Öz zəhmətinə, torpağın bərəkətinə və dövlətin dəstəyinə arxalanan kəndlinin indi hər cür maddi-texniki təminatı da vardır. Belə ki, 1994-cü ildə cəmi iki ədəd traktor və bir kombayn olan Nehrəmdə hazırda 7 kombayn, 22 ədəd müxtəlif markalı traktor, şum kotanı və digər kənd təsərrüfatı texnikası vardır. Artıq 90-cı illərin əvvəllərində sökülüb-dağıdılmış bağların yerində yeni bağların salınmasına başlanılıb. Belə ki, son illərdə kənddə müasir texnologiya ilə suvarılan 80 hektarlıq təzə üzüm bağı salınıb, daha 50 hektarda belə bağ salınması nəzərdə tutulub.

Nehrəmlilər inanclarına sadiq insanlardır. Keçmişdə mövcud olmuş heç bir qara-qorxu onları dinimizə olan inancından döndərməyib, Nehrəm camaatı bütün dini ayinlərini yerinə yetirib. Cəmiyyətimizin müasir inkişaf mərhələsində isə bu inamın yaşanması, insani və ümumbəşəri duyğuların təbliği üçün hər cür şərait yaradılıb. Nehrəmdə hazırda mövcud olan 9 məscid və 1 imamzadə dindarların ixtiyarına verilib. Bu yaxınlarda açılışı olmuş yeni məscid isə dindarları çox sevindirib.

Nehrəm kəndi öz həyatının yeni bir mərhələsini yaşayır, inkişaf edir. Kəndin bostançısından tutmuş ziyalısınadək burada hər kəs öz işi ilə məşğuldur. Kimi qışa hazırlaşır, kimi məhsulunu tədarük edir, kimi isə ona həvalə olunmuş vəzifəni yerinə yetirməklə bu günün işini sabaha saxlamamağa çalışır. Burada hamı bilir ki, bu gün vaxtında görülən hər iş sabahkı inkişafın təminatıdır. Yaxşı yaşamaq, həyatını daha yaxşıya doğru dəyişmək istəyirsənsə, daim nəsə düşünməli, yeniliklər tətbiq etməlisən, – deyir nehrəmlilər.

*Bəli, Nehrəmdə çox dəyişikliklər vardır. Burada tək dəyişilməyən milli dəyərlərimizə olan bağlılıq, dinimizə olan ehtiram, müstəqil dövlətimizin inkişafı naminə çalışmaq əzmidir. Bu, keçmişdə də belə olub.*

**✍ Əli CABBAROV**
***Yazı "Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür***

# Turizmin inkişafı ölkədə aparılan miqrasiya siyasəti ilə sıx bağlıdır

***Turizm XXI əsrdə dünyada ən çox diqqət mərkəzində olan sahələrdən birinə çevrilib. Son illərdə bu sahənin inkişafı elə bir mərhələyə qədəm qoyub ki, turistlərə qapı açmayan və yaxud buna maraq göstərməyən ölkə özünü bütün dünyəvi proseslərdən təcrid etməyə məhkum etmiş kimi sayılır. Əgər əvvəllər turistlər getdikləri ölkədə, sadəcə, tarix, mədəniyyət, gözəl təbiət əraziləri axtarırdılarsa, indi buna çoxsaylı maraq sahələri daxildir. Çünki turizm insanların sərhədsiz düşüncə maraqlarının üzərində cəmləşmiş bir sahədir. Buna görə də son dövrlərdə çoxsaylı turizm sahələri inkişaf etdirilməkdədir. Ancaq istənilən halda turizm yenə də səfalı təbiət, qədim tarix, mədəniyyət, qonaqpərvərlik və təhlükəsizlik amilləri üzərində qurulur. Hansı ki sadaladığımız amillər ölkəmizdə turizmin davamlı inkişafı baxımından əsl təməl rolunu oynayır.***

Aparılan məqsədyönlü siyasət nəticəsində muxtar respublikamızda da bu sahədə fəaliyyət genişləndirilib, mövcud turizm potensialının inkişafına nail olunub. Naxçıvan şəhəri və rayon mərkəzləri ilə yanaşı, bölgənin ən ucqar kəndlərinə belə, rahat yollar çəkilib, avtobuslar, taksi və qatarlar vasitəsilə bütün rayonlara və kəndlərə gediş-gəliş asanlaşıb. Hər gün Naxçıvan şəhərindən və Şərur rayonundan sərnişin avtobusları İran İslam Respublikası ərazisindən keçməklə Bakı şəhərinə yola düşür. Naxçıvan Beynəlxalq Hava Limanında Bakı, Gəncə, Moskva və İstanbul reysləri üzrə uçuşlar həyata keçirilir. Bir sözlə, muxtar respublikanın şəhər, qəsəbə və kəndlərinin inkişafı istiqamətində görülən işlər, nəqliyyat infrastrukturunun genişləndirilməsi, yaradılan müasir turizm obyektləri imkan verir ki, dünyanın müxtəlif ölkələrindən bu diyara üz tutan turistlərə yüksək xidmət göstərilsin.

Naxçıvan artıq yeni bir marşrut kimi turistlərin diqqətini ildən-ilə daha çox cəlb edir. Rəsmi olaraq yayılan statistik rəqəmlər də belə deməyə əsas verir. Belə ki, 2016-cı ilin yanvar-sentyabr aylarında muxtar respublikamıza 328 min 213 nəfər turist gəlib ki, bu da 2015-ci illə müqayisədə 1,2 faiz çoxdur.

Turizmin inkişafı hazırda elə bir prioritet sahəyə çevrilib ki, bu sahəni heç bir halda ikinci dərəcəli hesab etmək mümkün deyil. Cari ilin mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilmiş müşavirə də bunu bir daha təsdiq etdi. Müşavirədə səsləndirildiyi kimi, muxtar respublikamızda turizmin inkişaf etdirilməsi üçün kifayət qədər potensialımız var. Ancaq potensialın olması məsələnin bir tərəfidirsə, bu potensialdan lazımınca istifadə etmək, mövcud resurslardan səmərəli şəkildə faydalanmaq, ən əsası isə işin düzgün icrası da mühüm şərtlərdəndir.

Hər kəsə məlumdur ki, turizmin inkişaf etdirilməsi ölkədə aparılan miqrasiya siyasəti ilə sıx bağlıdır. Bu məqsədlə də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti işini günün tələbləri səviyyəsində qurmaqla, bu sahədə fəaliyyətini gücləndirib və turistlərlə işin təşkilinə diqqəti artırıb.

Verilən tapşırıqlara əsasən, muxtar respublika ərazisinə müxtəlif məqsədlərlə, eləcə də turizm məqsədilə daxil olan xarici ölkə vətəndaşlarının Dövlət Miqrasiya Xidməti tərəfindən qeydiyyata alınma proseduru sadələşdirilib, sənədlərin yoxlanılması vaxtı yarana biləcək maneələrin aradan qaldırılması üçün müvafiq işlər görülüb. Sərhəd-buraxılış məntəqələrində fəaliyyəti təmin olunmuş Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Dövlət Miqrasiya Xidmətinə gəlmədən olduğu yer üzrə qeydiyyata alınma prosesinin operativliyi artırılıb. Bunun nəticəsidir ki, cari ilin ilk 10 ayı ərzində sərhəd-buraxılış məntəqələrində yerləşən miqrasiya bölmələri tərəfindən 2000-ə yaxın əcnəbi olduğu yer üzrə qeydiyyata alınıb.

Muxtar respublika ərazisinə daxil olan əcnəbilərin qanunsuz miqranta çevrilməməsi üçün onların ölkəyə daxil olduğu vaxtdan maarifləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bunun üçün Dövlət Miqrasiya Xidməti tərəfindən miqrasiya sahəsi üzrə maarifləndirilmələrin müxtəlif istiqamətlərdə aparılması məqsədilə sərhəd-buraxılış məntəqələrində yerləşən miqrasiya bölmələrində elektron məlumat köşkləri yerləşdirilib, miqrasiya sahəsi üzrə məlumatların 3 dildə (Azərbaycan, rus və ingilis dillərində) yazılı və səslə vətəndaşlara çatdırılma imkanı yaradılıb. Həmçinin məkandan asılı olmayaraq ölkə ərazisinə daxil olan xarici ölkə vətəndaşlarının müraciət etmək hüququnun təmin edilməsi məqsədilə yaradılmış Dövlət Miqrasiya Xidmətinin "202-Miqrasiya Məlumat Mərkəzi"nin fəaliyyətinin də miqrasiya sahəsi üzrə müraciətlərin cavablandırılmasında və lazımi informasiyaları əldə edərək maarifləndirilməsində böyük rolu var.

Dövlət Miqrasiya Xidməti turizmin əsas subyektlərindən sayılan mehmanxanalarla da işin təşkilini diqqətdə saxlayır. Belə ki, xidmət üçün konkret sahələrə görə müəyyənləşdirilmiş 9 xidmət növü üzrə sahələr avtomatlaşdırılaraq Elektron Hökumət Portalı vasitəsilə istifadəçilərə təqdim edilməklə mehmanxanaların elektron resurslardan maksimum şəkildə yararlanmasına şərait yaradılıb. Bununla da, turistləri qəbul edən tərəf qismində iştirak edən və bu işdə fəallıq göstərən mehmanxanalarla Dövlət Miqrasiya Xidməti arasında Elektron Hökumət Portalı üzərindən elektron sənəd dövriyyəsinin aparılması ilə ölkəyə gələn əcnəbi qonaqların olduğu yer üzrə qeydiyyata alınması proseduru sadələşdirilib. Bundan əlavə, Dövlət Miqrasiya Xidmətinin (*miqrasiya@nakhchivan.az*) elektron poçt ünvanının da daim ictimaiyyət üçün açıq və aktiv olması müraciətlərin qəbul edilməsində böyük rol oynayır. Bununla da, elektron xidmətlər vasitəsilə vətəndaşlarla Dövlət Miqrasiya Xidməti arasında sərf olunan vaxt minimuma endirilib, daha operativ, keyfiyyətli xidmətin göstərilməsi təmin edilib.

Üç dildə vətəndaşların istifadəsinə verilən Dövlət Miqrasiya Xidmətinin (*www.miqrasiya.nakhchivan.az*) rəsmi internet səhifəsinin fəaliyyət göstərməsi dünyanın müxtəlif yerlərindən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə xidmətə müraciət etmə imkanı yaradır və miqrasiya sahəsi üzrə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasında böyük rol oynayır. Saytda muxtar respublikanın turizm imkanlarını əks etdirən şəkillərin mütəmadi olaraq yenilənməsi, "Naxçıvanın gözməli, görməli yerləri" adlı videoçarxın 3 dildə nümayiş etdirilməsi, Naxçıvan Muxtar Respublikasının portal saytına və Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsinə keçidin verilməsi əcnəbilərdə həm muxtar respublika barədə ilkin təsəvvürün yaranmasına, həm də onların ölkəyə gəldiyi vaxtdan miqrasiya qanunvericiliyi ilə tanış olmaqla, müraciətlərinin göndərilməsinə imkan yaradıb. Saytda "Elektron xidmət" və "Onlayn ödəmə" bölməsinin fəaliyyət göstərməsi, sual-cavab və müraciətlər bölməsinin daim istifadəçilərə açıq olması əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri, eyni zamanda Azərbaycan Respublikası vətəndaşlarını məkandan asılı olmayaraq, miqrasiya qanunvericiliyi ilə bağlı maraqlandıran sualların operativ cavablandırılmasına şərait yaradır.

Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti muxtar respublikaya gələn əcnəbilərin maarifləndirilməsi istiqamətində də bir sıra işlər görüb. Xidmət və Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əcnəbilər Azərbaycanın, o cümlədən muxtar respublikanın mədəniyyəti, incəsənəti, mətbəxi və turizm imkanları haqqında məlumatlandırılıb, onların muzeylərə və tarixi yerlərə ekskursiyaları təşkil edilib. Belə ki, xidmətdə muxtar respublikada yaşayan, əyani təhsil alan və əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Azərbaycan xalqının mədəniyyəti və inkişaf tarixi", "Azərbaycan xalçaları", "Azərbaycanın Dövlət Bayrağı", "Klassik Azərbaycan ədəbiyyatı", "Azərbaycan rəssamlıq məktəbi", "Naxçıvanın tarixi abidələri", "Əlincəqala", "Gülüstan türbəsi" mövzularında maarifləndirici tədbirlər və muzeylərə ekskursiyalar təşkil olunub. Qeyd etmək lazımdır ki, bu günə qədər keçirilən tədbirlərdə 200-ə qədər əcnəbi və vətəndaşlığı olmayan şəxsin iştirakı təmin edilib. Əcnəbilərə muxtar respublikanın tanıdılması və tarixinin öyrədilməsi istiqamətində görülən tədbirlərin davam etdirilməsi Dövlət Miqrasiya Xidmətinin diqqət mərkəzindədir.

Turizm ümumxalq işidir. Buna görə də bu sahənin inkişafına hər kəs öz töhfəsini verməlidir. Elə 2016-cı il mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə də turizmin inkişafı üçün sahib olduğunuz potensialdan səmərəli istifadə edilməsi və güclü təşviqat mexanizminin qurulması əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Buna görə də bu gün hər birimizin məqsədi muxtar respublikamıza turistlərin yenidən gəlməsinə nail olmaqdır. Turizm çoxprofilli sahə olduğundan, bütün cəmiyyət olaraq hər birimiz də bu sahənin inkişafı üçün üzərimizə düşən vəzifəni yerinə yetirməyə çalışmalıyıq.

*Bu gün miqrasiya proseslərinin beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənməsi, miqrasiya proseslərinin günün tələblərinə uyğun aparılması və onun üzərində dövlət nəzarətinin gücləndirilməsi, turistlərin rahatlığının təmin edilməsi istiqamətində görülən işlərlə Dövlət Miqrasiya Xidməti də turizm sahəsinə öz töhfəsini verməyə çalışır.*

**Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi**

***Naxçıvan Dövlət Universitetində "Gənclərin dövlətin ictimai-siyasi və mədəni həyatında rolu" mövzusunda tədbir keçirilib.***

# *"Gənclərin dövlətin ictimai-siyasi və mədəni həyatında rolu"* mövzusunda tədbir keçirilib



Tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək Azərbaycanda ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan, ölkə başçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətindən bəhs edib. Qeyd olunub ki, Azərbaycan gəncliyinin aparıcı, avanqard qüvvə kimi formalaşdırılması dövlət strategiyasının əsas prioritet istiqamətlərindəndir. Rektor universitetdə təhsil alan gənclərin elm, təhsil, mədəniyyət, idman sahəsində bir sıra əhəmiyyətli uğurlar qazanmasından, onların fiziki və mənəvi tərbiyəsi, asudə vaxtlarının səmərəli keçirilməsi, intellektual inkişafı üçün görülən işlərdən danışıb.

Tədbirdə Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, fəlsəfə üzrə elmlər doktoru Qərib Allahverdiyev, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev, universitetin Tələbə İnformasiya Mərkəzinin əməkdaşı Uğur Məmmədov, Mətbuat şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultan müasir Azərbaycan gəncliyinin müstəqil dövlət quruculuğunda, cəmiyyətdəki ictimai proseslərdə, milli-mənəvi dəyərlərimizin yaşadılmasında və təbliğində müstəsna rolundan danışıblar. Muxtar respublikada dövlət idarəetmə strukturlarında, ictimai işlərdə potensial qüvvə kimi gənclərin hər zaman irəli çəkilməsi onlara göstərilən yüksək etimad kimi dəyərləndirilib.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasına xidmət edən gənclər siyasətinin əsasını xalqımızın çoxəsrlik milli-mənəvi dəyərləri əsasında müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsi təşkil edir. Çıxış edənlər gəncləri Vətəni sevməyə, öz tarixi keçmişinə və əxlaqi dəyərlərinə, dövlətçilik ideyalarına sədaqət göstərməyə, zəngin bilik və dünyagörüşünə malik olmağa, siyasi səbatlılığa, milli təfəkkürə sahiblənməyə, zərərli ideologiya və vərdişlərdən yayınmağa səsləyiblər.

Tədbir diskussiya şəklində davam edib, tələbələrin sualları cavablandırılıb, təkliflər səsləndirilib.

**Mehriban SULTAN**

# Multikulturalizmin Azərbaycan modeli dünyada nümunə kimi qəbul olunur

***Azərbaycan qədim zamanlardan bəri multikultural dəyərlərin formalaşdığı bir ölkə olub və bu sahədə zəngin ənənələrə malikdir. Hazırda dünyanın bir sıra regionlarında münaqişələr, müharibələr davam edir. Bu da multikulturalizmin təbliğində və təşviqində Azərbaycan təcrübəsini ön plana çıxarır.***



Bu fikirlər "Naxçıvan" Universitetinin və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə "Multikulturalizmin əsas məkanlarından biri kimi Azərbaycan" adlı elmi-praktik konfransda səsləndirilib.

Konfransda çıxış edən "Naxçıvan" Universitetinin tərbiyə işləri üzrə prorektoru Əli Yusifov bildirib ki, multikulturalizm Azərbaycanda dövlət siyasəti səviyyəsinə yüksəlib. Bu ideyanın əsasını isə ümummilli lider Heydər Əliyev qoyub. Prezident cənab İlham Əliyev bu gün Azərbaycanın multikulturalizm modelinin dünyada tanıdılması istiqamətində böyük səylər göstərir. Dövlət başçısı qeyd edib ki, dünyada multikulturalizmin alternativi yoxdur. Azərbaycanda ən müxtəlif xalqların və millətlərin nümayəndələri həmrəylik, birlik şəraitində yaşayır. Bu, əsrlərdən bəri inkişaf edərək bu günümüzə gələn ənənədir. Ona görə də 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi heç də təsadüfi deyil və bunun tarixi kökləri vardır.

Konfransda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin aparıcı məsləhətçisi, II dərəcəli ədliyyə qulluqçusu, universitetin Pedaqogika və psixologiya kafedrasının müəllimi Həbibə Əliyevanın "Multikulturalizm və Azərbaycanda onunla bağlı görülən işlər", həmin şöbənin aparıcı məsləhətçisi, II dərəcəli ədliyyə qulluqçusu Ələkbər Hüseynovun "Multikulturalizm və xarici siyasət", universitetin İqtisadiyyat ixtisasının III kurs tələbəsi Əjdər İbrahimovun "Multikulturalizm cəmiyyətin həyat tərzi kimi" mövzularında çıxışları olub.

Çıxışlarda qeyd olunub ki, multikulturalizm siyasətinin təməlində xalqların qarşılıqlı əməkdaşlığı, tolerantlıq ideyaları və münaqişələrə yol verməmək prinsipləri dayanır. Əsrlər boyu böyük mədəniyyətlərin qovuşduğu bir diyar olan Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıb. Bu gün Prezident cənab İlham Əliyevin Azərbaycanda multikultural münasibətlərin inkişafı istiqamətində atdığı addımlar davamlı xarakter daşıyır.

Bildirilib ki, müstəqillik dövründən bu günə kimi multikulturalizm sahəsində həyata keçirilmiş islahatlar və atılmış addımlar tarixi ənənələrimizin möhkəmlənməsinə xidmət edir. Bu gün Azərbaycan multikulturalizmi bir model kimi formalaşıb və bu model artıq dünyada nümunə kimi qəbul olunur.

**Nuray ƏSGƏROVA**

# Qızılı payızın nemətləri satış-yarmarkada



*Belə rəvayət edirlər ki, bir kəndli qış ilə dostluq edirmiş. Kəndli qışdan xahiş edir ki, sən nə vaxt gəlsən, xəbər et, mən hazırlıq görüm. Qış da kəndliyə onun xahişini yerinə yetirəcəyinə söz verir. Kəndli bağ-bağçasında görməli olan işləri bir tərəfə atıb qışdan xəbər gözləyir. Bir gün səhər oyananda görür ki, qar yağıb. Dostuna bərk əsəbiləşir. Gedib onu tapır və deyir ki, sözünə sahib deyilsən, gəlişindən vaxtında məni xəbərdar etmədin. Qış gülə-gülə cavab verir ki, mən əhdimə sadiqəm. Və səni də vaxtında xəbərdar etmişəm. Əvvəlcə dağların zirvəsinə yağdım, fikirləşdim ki, dostum məni görür. Bir az gözlədim, dağların ətəklərinə endim. Xeyli möhlət verdim, sonra enib həyət-bağçanıza gəldim. Kişi səhv etdiyini başa düşür, dostunun haqlı olduğunu görür.*

Muxtar respublikanın zəhmətkeş əhalisi, kənd sakinləri, torpaq mülkiyyətçiləri hələ yazdan qışa hazırlaşırlar. Əkir-becərir, toplayır, satır, özlərinə qış tədarükü görürlər. Bu baxımdan neçə illərdir, Naxçıvan şəhərində, rayon mərkəzlərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkası böyük əhəmiyyət daşıyır. Satış-yarmarkada kəndli bağında, bostanında əkib-becərdiyi məhsulu özü satmaq imkanı, alıcı isə əldən-ələ keçməyən məhsulu ucuz qiymətə almaq imkanı qazanıb.

...Ötən şənbə günü təşkil edilən yarmarkada da qaynarlıq vardı. Məhsulların çeşidi, müxtəlifliyi də payız mövsümünə uyğun idi.

Yarmarkanın girəcəyində piştaxtanın arxasında dayanan Ordubad rayon Dırnıs kənd sakini Hüseyn Məmmədovla söhbətləşdik. O dedi ki, 1992-ci ildən, muxtar respublikada aqrar islahatlar həyata keçiriləndən kartof əkini ilə məşğuldur. Ancaq alıcı çoxluğundan onunla ətraflı söhbət edə bilmədik. Söhbətimizi digər bir torpaq mülkiyyətçisi ilə davam etdirdik. Şərur rayonundan olan Adil Məmmədov bildirdi ki, yarmarka fəaliyyətə başlayandan hər həftə buraya məhsul gətirir. Yay mövsümündə kifayət qədər pomidor, xiyar, badımcan, bibər satıb. Bu gün isə yarmarkaya kartof gətirib. Dedi ki, bizə belə satış yeri təşkil edildiyi kimi, məhsulumuzun xarab olmaması üçün soyuducu anbarlar da tikilib. Hazırda anbarda 8 ton kartof saxlayıram.

Şərur rayonunun Muğanlı kəndindən olan satıcı piştaxta üzərinə düzdüyü heyvaları tərifləyir, – şirin heyvadır, sinə məlhəmidir, soyuqdəymənin dərmanıdır, yaxşı mürəbbəsi olur, – deyirdi. Piştaxtaya bir müştəri yaxınlaşdı. Sonradan onun şəhər sakini Mirvari Məmmədova olduğunu öyrəndim. Heyvanı əlinə götürüb iylədi, bəh-bəh edəndən sonra 5 kiloqram çəkməsini xahiş etdi.

Bir az aralıda isə Şahbuz rayonunun torpaq mülkiyyətçiləri piştaxta arxasında dayanmışdılar. Onlar arasında Keçili kənd sakini İsrafil Əliyevi gördüm. Neçə ildir, bazara növbənöv alma, armud çıxarıb satdığını bilirdim. Piştaxtanın üzərində kənardan belə, alıcını çağıran almalar üzə gülürdü. Sanki budaqdan indicə dərilmişdi. Bunu necə təzə-tər saxladığını soruşdum. Qonşusu Bəxtiyar Baxşıyev söhbətə qoşuldu. Dedi ki, bizim yerlərə qış tez gəlir. Odur ki, bağların məhsulunu tez yığıb anbarlarda saxlayırıq. Şənbə və bazar günləri də satmağa gətiririk.

Onun yaxınlığında Kolanı kəndindən olan Hünər Orucov isə beçə əti, şor-kərə, qaymaq, bal satırdı. Dedi ki, kəndliyə bu gün yaxşı şərait yaradılıb. Necə yaşamaq özümüzdən asılıdır. Təkcə heyvandarlıq məhsulları deyil, xeyli cəviz də gətirmişdim, satıb qurtarmışam.

Həmin gün yarmarkaya Ordubad rayonundan da xeyli məhsul çıxarılmışdı. İstehsalçıların qurudub hazırladıqları meyvələrlə yanaşı, dədə-baba üsulu ilə hazırlayıb müxtəlifölçülü qablara yığdıqları mürəbbələrin də alıcıları çox idi. Xüsusilə də cəviz, gilas, ərik, zoğal, gilənar, badımcan mürəbbələri alıcılar tərəfindən sevə-sevə alınırdı. Əbülfəz Əliyevin gətirdiyi tut doşabına da alıcılar böyük maraq göstərirdilər. Bu məhsullardan alan şəhər sakini Hüseyn Səfərov minnətdarlığını bildirməyi də unutmadı.

Yaxınlıqdakı gəncin: – Üstüpü kələmi, – deyə müştərilərə səsləndiyini görüb ona yaxınlaşdıq. Elvin Tarverdiyev piştaxtaya tığ vurduğu kələmləri göstərərək, – hər həftənin şənbə-bazar günləri yarmarkaya çıxırıq, – dedi. Yaxşı da qazanırıq. Niyə də qazanmayaq? Əkib-becərmək üçün hər cür qayğı var.

Bu gəncin zəhmətdən yoğrulmuş əllərinə, qayğılı üzünə baxdıqca Dədə Qorqudun "Torpağı əkmirsənsə, qorumağına, qorumursansa, əkməyinə dəyməz" deyimi yadıma düşdü. Bəli, məhz dövlətin əkinçiyə yaratdığı şərait, torpağına bağlı insanların zəhməti sayəsində bu gün muxtar respublikamızın bazarları təzə-tər məhsullarla dolub-daşır. Elə qarşı tərəfdə "Naxçıvan bağları"nın məhsulu, istixanada becərilən məhsullarla dolu piştaxtalar da bunu təsdiq edirdi. Muxtar respublikanın dağlarından yığılan yemişan, zirinc, müxtəlif dərman bitkiləri, çaşır, baldırğan turşuları alıcılara təqdim edilirdi.

Bəli, payız günlərində bağ-bağçanın məhsulu tükənsə də, istehsalçılar satış-yarmarka üçün tədarük edib anbarlarda saxladıqları kartof, alma, armud məhsulları ilə yanaşı, pomidor, xiyar, bibər, üzüm məhsulları da gətirmişdilər. Piştaxta üzərində alça qurusu ilə yanaşı, onun cemindən hazırlanmış "lavaşa"ya da rast gəldik. Culfa rayonundan olan satıcı isə bazara ələyəz, əvəlik çıxarmışdı. Ərik, alça, gavalı qurusu da satırdı. Tərifləyirdi ki, yarma sıyığının, əriştə aşının dadı-tamıdır.

Satış-yarmarkanın ət məhsulları satılan hissəsində də gözəl bir şərait yaradılmışdı. Burada sanitariya qaydalarına ciddi diqqət yetirilir. Qəssab Rəsul Yusifov bildirdi ki, burda qiymət dəyişməzdir. Mal və heyvan ətinin 1 kiloqramı 8 manat, quzu ətinin isə 1 kiloqramı 9 manata satılır.

Yarmarkada muxtar respublikada fəaliyyət göstərən istehsal müəssisələrinin məhsullarına da geniş yer verilmişdi. Çeşid-çeşid makaron və qənnadı məhsulları, xörək duzu, mineral sular bu dəfə də alıcılar tərəfindən həvəslə alınırdı.

Beləcə, illərdir ki, hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində kənd təsərrüfatı məhsullarının satış yarmarkası keçirilir və bu yarmarka şəhər sakinlərinin ən çox üz tutduqları yerdir. Niyə də olmasın? Bu gərəkli tədbir həm satanlar, həm də alanlar üçün sərfəlidir. Şəhər sakini Qafar Quliyev yarmarkanın əhəmiyyətini vurğulayaraq dedi ki, Allah bu işi təşkil edənlərin ömrünü uzun eləsin. Kəndliyə hər cür şərait yaradılıb. Onların çəkdikləri zəhmət indi hədər getmir. İstehsal etdikləri məhsulları özləri sata bilirlər. Bu, alıcıları da qane edir. İlin bütün fəsillərində məhsul ala bilirik. Özü də ucuz qiymətə.

✍ **Hafizə ƏLİYEVA**

## Naxçıvan Dövlət Universiteti 2016-cı il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə qəbul elan edir

Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli sərəncamına uyğun olaraq təsdiq edilmiş plana əsasən aparılır.

Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

***Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya ödənişli əsaslarla, əyani şöbəyə***

Analiz və funksional analiz – 1 yer
Mikologiya – 1 yer
Ümumi iqtisadiyyat – 1 yer
Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası – 1 yer
Azərbaycan dili – 1 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer

***Dissertanturaya büdcə hesabına***

Diferensial tənliklər – 1 yer
Yarımkeçiricilər fizikası – 1 yer
Zoologiya – 1 yer
Parazitologiya – 1 yer
Ümumi iqtisadiyyat – 1 yer
Müəssisələrin təşkili və idarə olunması – 1 yer
Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası – 1 yer
Vətən tarixi – 1 yer
Azərbaycan ədəbiyyatı – 1 yer
Dünya ədəbiyyatı – 1 yer
Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer (Naxçıvan Müəllimlər İnstitutu üçün məqsədli yer)

***Dissertanturaya ödənişli əsaslarla***

Cəbr – 1 yer ("Naxçıvan" Universiteti üçün məqsədli yer)
Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi – 1 yer
Ümumi iqtisadiyyat – 1 yer
Müəssisələrin təşkili və idarə olunması – 2 yer
Ümumi tarix – 1 yer
Vətən tarixi – 1 yer
Azərbaycan dili – 2 yer
German dilləri – 2 yer (1 məqsədli yer "Naxçıvan" Universiteti üçün)
Azərbaycan ədəbiyyatı – 1 yer
Dünya ədəbiyyatı – 3 yer
Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 2 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 2 yer
Pedaqoji psixologiya – 1 yer ("Naxçıvan" Universiteti üçün məqsədli yer)
Sosial psixologiya – 1 yer

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- iş yerindən xasiyyətnamə;*
*- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

***Elmlər doktoru hazırlığı üzrə dissertanturaya büdcə hesabına, qiyabi şöbəyə***

Botanika – 1 yer
Tarixi dilçilik və etimologiya – 1 yer

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*- iş yerindən xasiyyətnamə;*
*- əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı;*
*- "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

***Doktoranturaya sənədlər 2016-cı il 25 noyabr-15 dekabr tarixlərdə qəbul edilir.***

***Qəbul imtahanları 2016-cı il 16 dekabr-30 dekabr tarixlərdə keçiriləcəkdir.***

***(Şənbə və bazar günləri sənədlər qəbul olunmur).***

## Naxçıvan Muxtar Respublikası üzrə 26 noyabr 2016-cı il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 4847,0 | 4650,0 | 197,0 |
| 2. | Babək rayonu | 7346,0 | 5185,0 | 2161,0 |
| 3. | Ordubad rayonu | 1392,0 | 712,0 | 680,0 |
| 4. | Culfa rayonu | 4637,0 | 3983,0 | 654,0 |
| 5. | Kəngərli rayonu | 3455,0 | 1840,0 | 1615,0 |
| 6. | Şahbuz rayonu | 1003,0 | 1003,0 | - |
| 7. | Sədərək rayonu | 1520,0 | 1195,0 | 325,0 |
| 8. | Naxçıvan şəhəri | 787,0 | 684,0 | 103,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **24987,0** | **19252,0** | **5735,0** |

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 910